# Azərbaycan 20 ildə əsrə bərabər möhtəşəm yol keçib

Ali Baş Komandan İlham Əliyev üç il öncə, 2020-ci il 27 sentyabr, səhərin erkən saatlarında düşmənin növbəti hücumuna qarşı Orduya bütün cəbhə boyu əks-hücum əmri verməklə, təkcə Azərbaycan tarixində deyil, bütövlükdə bölgənin və türk dünyasının tarixində yeni səhifə açmış oldu. Həmin gün 2016-cı ilin Aprel döyüşlərindən 4 il, 2018-ci ilin mayındakı Günnüt hərbi əməliyyatından 2 il, Tovuz döyüşlərindənsə cəmi 2 ay keçirdi.

Dünya hərb tarixində hər günü düşmənin məğlubiyyəti ilə tarixə düşən bir müharibə yoxdur. Cəmi 44 gün ərzində 30 illik işğala son qoyuldu, düşmən darmadağın edilərək tam məğlubiyyət - kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı. Lakin bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən korrupsiyalaşmış siyasətçilər tərəfindən şirniklən-dirilən təcavüzkar Ermənistan 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatının maddələrinin icrasını təmin etmək əvəzinə, gizli şəkildə silahlanmağa, revanşizmin təbliğinə üstünlük verdi. Ötən ilin sentyabrında Daşkəsən, Kəlbəcər, Laçın sərhədləri boyu təxribatlar törətdi, mina terroruna əl ataraq 300-dən çox vətəndaşımızın həyatına zərbə vurdu. Bütün bu təxribatlara görə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzura səfərləri zamanı düşmənə dəfələrlə xəbərdarlıq edən Ali Baş Komandan bunun cavabında "Dəmir yumruğ"un gücünü yenidən görməli olacaqlarını söylədi və belə də oldu.

Suverenliyimizin tam bərpası istiqamətində inamla irəliləyən və əsas hədəfə doğru addım-addım yaxınlaşan Ali Baş Komandan oktyabrın 15-də, hakimiyyətinin 20-ci ildönümündə Xankəndidə Azərbaycanın Dövlət Bayrağını ucaldaraq Zəfər tariximizə daha bir şanlı səhifəni yazdı. Xankəndinin əsas meydanından xalqa müraciət edən Prezident İlham Əliyev ilk gündən xalqa verdiyi sözü yerinə yetirmək üçün xalqı səfərbər edərək gecə-gündüz necə çalışdığını belə ifadə etdi: "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır".

44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərin məhz bu ildə tamamlanması rəmzi məna daşıyır. Xankəndi Zəfəri "Heydər Əliyev İli"nə ən böyük töhfədir. Vətən müharibəsində əldə olunan tarixi Zəfərdən üç il sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ilində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Xankəndidə separatçı rejimin ləğv edilməsi, Azərbaycanın hər bir qarış torpağı üzərində suveren hüququnun tam bərpa edilməsi kimi tarixi missiya yerinə yetirildi. Dəmir iradə, "dəmir yumruq" öz qətiyyəti ilə xalqına, ölkəsinə qələbə sevincini yaşatdı.

Son ayların Zəfər salnaməsinin səhifələrini bir daha vərəqləyək. 2023-cü il aprelin 23-də Laçın rayonunun Həkəri körpüsü üzərində - Ermənistanla şərti dövlət sərhədində sərhəd-buraxılış məntəqəsinin qoyulması ilə Azərbaycanın ərazi bütövlüyü praktiki olaraq təmin edildi. Azərbaycan torpağında erməni separatizminin nəfəsliyi olan "Laçın dəhlizi" ləğv edildi, bütün Qarabağa və Şərqi Zəngəzura tam nəzarət Azərbaycanın daxili işinə çevrildi. Azərbaycan torpağında separatizmin ləğvi və ərazimizdə qalan erməni silahlı dəstələrinin təminatları kəsildi, Ermənistan ərazisindən silah-sursat daşınmasının qarşısı alındı. Qarabağın erməni əhalisinin reinteqrasiya prosesi ön plana çıxarıldı, erməni əhalisinin separatçıların və terrorçuların girovluğundan xilas edilməsi istiqamətində praktiki addımlar atıldı.

2023-cü il 19 sentyabr tarixli lokal antiterror tədbirləri nəticəsində Ermənistan ordusunun ərazilərimizdəki tör-töküntüləri darmadağın edildi, separatçı-terrorçu dəstələr tərk-silah və təslim edildi.

44 günlük Zəfər yürüşündə BMT-nin 4 qətnaməsini təkbaşına icra edən dövlətimiz yenə təkbaşına 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın yerinə yetirilməmiş maddəsinin icrasını təmin etməyi bacardı.

28 sentyabrda Qarabağdakı separatçı rejim "rəsmi olaraq" özünü buraxdı və bununla da 2020-ci ilin 27 sentyabrında başlayan, Azərbaycanın 200 illik məğlubiyyət tarixini dəyişdirən, bölgədə tamamilə yeni reallıqlar yaradan Vətən müharibəsində əldə edilmiş Zəfər tamamlandı.

2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyev müqəddəs Azərbaycan Bayrağını Xocavənd şəhərində, Ağdərədə, Xocalıda və Xankəndidə qaldıraraq xalqımıza 30 ildən çox səbirlə gözlənilən ən böyük müjdəni - tam qələbə xəbərini verdi. 32 il ərzində Xankəndidə separatizm, terrorçuluq, türk düşmənçiliyi təbliğatının yuvasına çevrilmiş binanın üzərinə Azərbaycan Respublikasının gerbini vurdurdu, önündə müqəddəs Azərbaycan Bayrağı qaldıraraq revanşizm çağırışları edənlərə son xəbərdarlığını etdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 20 il əvvəl 2003-cü il oktyabrın 15-də fəaliyyətinin ilk günündə xalqa verdiyi vədi tam yerinə yetirdi. Sözü imzası qədər kəçərli, siyasi iradəsi, prinsipiallığı, uzaqgörənliyi ilə ən yeni Azərbaycan tarixinə öz möhürünü vurmuş və gələcək nəsillərə parlaq inkişaf yolu açmış lider - İlham Əliyev Azərbaycan ərazisində erməni separatizminə son qoydu, Azərbaycanın müstəqilliyini, hər bir qarış torpağı üzərində suveren hüququnu tam bərpa etdi.

"Nəyi, nə vaxt və necə edəcəyini" hamıdan yaxşı bilən Prezident İlham Əliyevin tayı-bərabəri olmayan, strateji-taktiki-siyasi gedişatlarla zəngin planının reallaşdırılması nəticəsində qazandığımız Xankəndi Zəfəri milli dövlətçiliyimizin keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olmasına zəmin yaratdı.

Bu gün Azərbaycan dünyanı həm də işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi nəhəng bərpa və quruculuq işləri ilə heyrətləndirir. 30 il düşmən tapdağı altında qalan torpaqlarımız məhz Prezident İlham Əliyevin əzmkarlığı ilə cənnətə çevrilir. Uzun illər yurd həsrəti ilə yaşayan insanlar öz doğma torpaqlarına qayıdırlar.

Ölkə və xalq olaraq əldə etdiyimiz uğurların təməlində məhz Prezident İlham Əliyevin gərgin əməyi sayəsində yaranan sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Azərbaycan xalqı öz liderinə - Prezidentinə güvənir və inanır! Xalq öz Prezidentini sevir! Xalq Prezidentinin arxasındadır!

Əminik ki, bu qarşılıqlı inamla 20 ildə əsrə bərabər möhtəşəm bir yol qət edən, cəmi 23 saat ərzində ildırım sürətli qəti qələbəyə imza atan xilaskar Prezident, Müzəffər Ali Baş Komandan, yenilməz Sərkərdə cənab İlham Əliyev Azərbaycanımızı bundan sonra da daim Zəfərlərə, Zirvələrə aparacaq!

**Jalə ƏLİYEVA,**
***Milli Məclisin Ailə, qadın, uşaq məsələləri komitəsinin sədr müavini***